Ədalət 2019.- 31 oktyabr.- S.8.

**Bu günlərdə Qubada fəaliyyət göstərən A.A.Bakıxanov adına "Gülüstan" elmi-ədəbi məclisinin növbəti məşğələsi oldu. Tədbiri məclisin sədri Şixəmməd Seyidməmmədov açaraq ilk öncə qeyd etdi ki, "gülüstan"çılara, ümumiyyətlə Qubanın yaradıcı adamlarına ağır itki üz vermişdir. Belə ki, AJB-nin üzvi, "Cəhənnəmi görmüş adam", "Axirat günü", "Övliya" kimi sanballı kitabların müəllifi Naməddin Mirzəxanlı ömrünün 86-cı ilində dünyasını dəyişmişdir. N.Mirzəxanlı "Qızıl Quba" rayon qəzetində şöbə müdiri, "Nur" qəzetinin təsisçisi və baş redaktoru olmuşdur. Dəfələrlə "Ulduz" və "Azərbaycan" jurnallarında hekayə və povestləri çap olunmuşdur. O, vaxtaşırı "Gülüstan" elmi-ədəbi məclisinin məşğələlərində iştirak edərək yaradıcılığı haqqında məlumat verər, ağsaqqal nəsihət və məsləhətlərini heç kimdən əsirgəməzdi. Ş.Seyidməmmədov , N.Mirzəxanlıya Allahdan rəhmət diləyərək ölümünə yazdığı "Əzizlərim ağlasın məni" elegeyasını oxudu. "Gülüstan"çılar N.Mirzəxanlının xatirəsini bir dəqiqəlik sükutla yad etdilər.**

Daha sonra nasir- publisist Kərim Dünyamalının "Cəbhə xatirələri" (gördüklərim və bildiklərim) kitabının müzakirəsinə başlanılmışdır. Məclisin sədri Ş.Seyidməmmədov həmin kitab haqqında məlumat verərək qeyd etmişdir ki, "Cəbhə xatirələri" kitabında torpaqlarımızın müdafiəsi uğrunda erməni qəsbkarlarına qarşı vuruşmuş xüsusi təyinatlı əskər və zabitlərinin keçdiyi döyüş yolundan bəhs edilir. Müəllifin 1990-1994-cü illərdə şahidi olduğu hadisələri, iştirak etdiyi döyüş əməliyyatlarını, isti-isti qələmə aldığı, faktlar əsasında canlandırdığı bu kitabı vətəqlədikcə oxucular uğursuzluqlara yol açan kadr siyasətindən məharətlə istifadə edərək vəzifələrə yiyələnən səriştəsiz adamların əməl və nöqsanlarından yaranan hallara acı təəssüf hissləri keçirməklə yanaşı vətənpərvər əskər və zabitlərin göstərdikləri şücaətlə qururlanır, işğal altında olan torpaqların erməni faşistlərindən azad olunacağına inanırlar. Kitabda göstərilən koordinatlar, oriyentlər, gizli danışıqlar şərtidir. Qarabağ müharibəsinin qanlı döyüşlərini, keçmiş xüsusi təyinatlı hərbi hissənin uğurlu-uğursuz döyüş yollarından bəhs edən bu kitab inanırıq ki, oxucular tərəfindən rəğbətlə qarşılanacaqdır. Aşağıda oxucularımız məclis üzvlərinin yaradıcılıq nümunələri ilə tanış ola bilərlər.

***Şixəmməd Seyidməmmədov,***
***A.A.Bakıxanov adına "Gülüstan"***
***elmi-ədəbi məclisinin sədri***

## İtirmişəm

Sən gedəndən ay gözəl,
Özümü itirmişəm.
Sənə həsrətlə baxan,
Gözümü itirmişəm.

Dostum olub kədər, qəm,
Səni anıram hər dəm.
Səninlə birgə gedən,
İzimi itirmişəm.

Nə tez unutdun məni,
Səni qəlbdən sevəni.
Dilim deyən kəlməni,
Sözümü itirmişəm.

Artıq illər ötüşür,
O dəmlər yada düşür.
Ömrün sonu yetişir,
Dözümü itirmişəm.

***Pirəli Rüklü, Quba***

## Erməni vartan

Tikəmlə keçinib atan, baban da,
Bu nə şər, nə oyun erməni vartan ?
Özgə bir məxluqsuz özgə məkanda,
Anlamazmı soyun erməni vartan ?

Vicdanla soruş bir özün-özündən,
Nə üzlə göz dikdin Qarabağa sən ?
Yediyin gəlməzmi o kor gözündən ?
Yerə girsin boyun erməni vartan !

Milyonu salıbsan didərginə sən,
Yatanın, yetənin qanın tökübsən.
Külli abidələr vurub sökübsən,
Xəyanətmi payın erməni vartan ?
"Veliki armeni" saldın şüara,
Bu yanlış fikrinlə niyyətin qara.
Türkün türk səbri var, çəkil kənara !
Çıxarılar suyun, erməni vartan !

Bir də Şuşa sözün gətirmə dilə,
Nəyin nə olduğun sən bilə-bilə !
Qanmasan raketlə, top-tüfəng ilə,
Çalınacaq toyun, erməni vartan !

***Asvar Tufandağlı,***
***Quba***

## Səni seçdim

Anam hər gün dedi ki, evlən oğul, durma, tələs,
Yaş keçir, illər ötür, ömrü yelə vermə əbəs.
Kasıba ilişmə ha... Varlı yerə göstər həvəs,
Səni seçdim gözəlim, çünki deputatdı atan.
Həm kalan, həm arxalı, həm ürəyi şaddı atan.

Varlılar içrə onun dağdan ağır hörməti var,
Hər tərəfdən cibinə sel tək axan rüşvəti var.
Vəzifə pilləsində yüksəlişi, vüsəti var,
Deyirlər ali olub, indi daha "zat"dır atan,
Səni seçdim gözəlim, çünki deputatdı atan.

Nə qədər şirkəti var, pul ilə oynayır əli,
Dilinin bir sözü var, qəlbinin min bir əməli.
Qurulub alver ilə ta lap əzəldən təməli,
Pisi də yaxşı kimi qarışdırıb satdı atan,
Səni seçdim gözəlim, çünki deputatdı atan.

Bu qədər fənd ki, bilir mən ona heyran olaram,
Gündə yüz yol istəsə canına qurban olaram.
Qaynata olsa mənə mən də firavan olaram,
Tək pulun vurğunudur, özgə nə var yaddı atan,
Səni seçdim gözəlim, çünki deputatdı atan.

Millətə vəd edərək iş başına keçdi kişi,
"Ev tikib, qaz çəkərəm" yalançı vədlərdir işi.
Biri inanmasa da amma ki, səs verdi beşi,
Yalanı doğru kimi bir-birinə qatdı atan,
Səni seçdim gözəlim, çünki deputatdı atan.

Arzuya çatmaq üçün baş gərək işlətsin adam,
Əslimə, öz kökümə mən ki, əvvəldən də yadam.
Ataram öz atamı, qoy özü olsun o Atam,
Deyirəm bəlkə elə köməyimə çatdı atan,
Səni seçdim gözəlim, çünki deputatdı atan.

***Sabir Nemətov, Xaçmaz***

## Əzizlərim ağlasın məni

**(Naməddin Mərzəxanlının ölümünə elegiya)**

Bu gözəl dünyadan uzaqdayam mən,
Ağlasın, el-obam, ağlasın məni.
Əvvəldən ürəyi yaralıyam mən,
Ağlasın dostlarım, ağlasın məni.

Məzarım soyuqdur, yata bilmirəm,
Üstümdə torpaq var, ata bilmirəm,
Ruhum uçub gedib çata bilmirəm,
Ağlasın əzizlər, ağlasın məni.

Mənim baxışlarım sükuta dalıb,
Ölüm sevinməsin məni aparıb.
Şirin arzularım həyatda qalıb,
Ağlasın yazarlar, ağlasın məni.

Sinəm qan içində, qan ümmanında,
Qərib qonaq oldum, haqq dünyasında.
Daima axtarın el arasında,
Əziz Fərid nəvəm, ağlasın məni !

***Şixəmməd,***
***məclisin sədri, Quba***

## Gedin uğurlar olsun!

Bu gün oğlum əsgər gedir,
Qürur hissi keçirirəm.
Hərbi forma geyinməmiş,
Ona and da içirirəm.

Deyirəm, göz bəbəyin tək,
Qoru Anamız Vətəni.
Hərbi işdə çətinliklər
Heç vaxt qorxutmasın səni!

Keşikdə möhkəm dur, oğul,
Ayıq-sayıq dayan, yatma!
Mövqeyini yaxşı qoru,
Bir addım da geri atma!

Mübariz tək mübariz ol,
Qoru Vətən torpağını.
Hər vaxt uca tut üçrəngli,
Azərbaycan bayrağını!

Gedin, hərbi işinizdə
Uğurlar dilərik sizə !
Torpaqları azad edib
Xoş müjdə gətirin bizə !

***Mehrəli Qulu,***
***Xaçmaz***

## Danya qarıyır

Duman şəfəqin darayır,
Vaxtını gün, ay darayır.
Bu dünya vaxtsız qarıyır,
Elçisi yox daşı üstə.

Torpağına yiyə çoxdu,
Bölhaböldü, boğhaboğdu.
Nə olsun ki, gözütoxdu,
Qarası yox aşı üstə.

Yerli-yersiz hey danlanır,
Məhəbbət görsə, canlanır.
Rəhgi, Ruhu da allanır,
Nadan üstə, naşı üstə.

Nənəm kimi yumaq olub,
Qara teli düm ağ olub.
Dərdi indi "papaq" olub,
Sevincinin başı üstə.

Nə gözəldi, yox gözəldi,
Vursa qəlbə ox gözəldi.
Dünya hələ çox gözətdi,
Teli çoxdu qaşı üstə.

***Böyükağa Ağa,***
***Xaçmaz***

## Sənə tay hanı...

**Xalq artisti Tariyel Qasımoğlunun 80 illiyinə**

Çox-çox ölkələri gəzdin, dolaşdın,
Kino artistitək sən doğmalaşdın,
Yurdunu tanıdıb, zirvələr aşdın,
Xalqın sənət oğlu, sənə tay hanı !




"Odlu yollarla" filmi şöhrətindir,
Səhnə obrazların-əmanətindir,
"Azadlıq atəşi" şah əsəridir,
Xalqın sənət oğlu, sənə tay hanı !

Desən də gözəldir Düşənbə, Daşkənd,
Doğmadır Köçəsgər -doğulduğun kənd,
Çıxıb salamına bu qoca Dərbənd,
Xalqın sənət oğlu, sənə tay hanı !

Saçırsan qəlblərə mavi günəştək,
Uca zirvələrdə parla ulduztək,
Deyirəm ad günün olsun mübarək,
Xalqın sənət oğlu, sənə tay hanı !

**Tahir Saleh,**
**Dərbənd**

## Getdi

Mən ulduzam, ayam deyən,
Ulduz kimi axıb getdi.
Bu dünyanı bağça bilən,
Gül-çiçəyə baxıb getdi.

Bir gün ömür sona yetər,
Çox gül solub olsa da tər.
Bu cahanı zalım Hitler,
Od-alova yaxıb getdi.

Rizvan, burax təkəbbürü,
Zaman yıxıb çox bəbiri.
Biri günə döndü, biri
Şimşək kimi çaxıb getdi.

**Rizvan Qiblədağlı,**
**Quba**

## Qəzəl

Çək sən məni zülmün oduna min sınağ eylə.
Gizlincə yanan könlünün eşqin oyaq eylə.

Eşqimlə yanan gözlərinin atəşi sönməz.
Əslində məhəbbət budu, yandır marağ eylə.

Fərqindəyəm hər nazını çəkdikcə üzürsən,
Uf da deməram, çək onu min bir budağ eylə.

Rəsmindədir hər sözümün ahəngi, bilirsən,
Alçalmaram öz eşqimə gəz gör sorağ eylə.

Lilləndi yenə gözlərimin eşqi adınçün,
İşgəncən ilə könlümü çildağlı dağ eylə.

Lal olmayacaqdır dilim, ömrüm boyu susmam,
Pərvanənə dönsəm, özünü yan çırağ eylə.

Axşam, səhər aynanda görünsəm belə, çaşma,
Rəngimlə boyan, əllərimi al darağ eylə.

Mövlanlı məhəbbət sənə ömrün boyu bəsdi.
Sevgimlə yaşa ömrünü çiçəkli bağ eylə.

**Mövlan Şahid,**
**Xaçmaz**

## Dünya

Ac əlini açıb dilər,
Tox olanın üzü gülər.
Biri gələr, biri gedər,
Dolub boşalırsan dünya.

Dünya malına susama,
Gördüyünü qamarlama.
Bir gün həyat yetər sona,
Söylə, kimə qalmış dünya.
Torpaqdan yaranmış İnsan !
Bil ki, dünyaya qonaqsan,
Yenə torpağın olarsan,
Yola salar səni dünya.

Bilmirik niyə belədir,
Həyata gələn köç edir.
Canlı gələn, cansız gedir,
Yaşı bilinməyən dünya.

Göyün üzü mavi-hamar,
Yerin üzü damar-damar.
Səndən doyub, gedənmi var ?
Vəfasız, inamsız dünya.

**Sabir Kazımoğlu,**
**Quba**

## Şairlər

Beyninə gülləni sıxsan,
Qəlbini odlara yaxsan,
Olmaz zərrə də pərişan, -
Düzlüyü sevir şairlər.

Sözü bütöv olar, qaçmaz,
Nahaq odlara alışmaz.
Yalan, böhtanla barışmaz, -
Düzlüyü sevir şairlər.

Əhdi, vəfası duyular,
Könül dünyası duyular,
Nəsimi tək soyular, -
Düzlüyü sevər şairlər ...

**Nəzər Mirzəyev,**
**Xaçmaz**

## Biləydim kaş

Sən oduma yanan kimi,
Mən də yana biləydim kaş.
Sən yuxuda, röyadasan,
Mən oyana biləydim kaş.

Ümidlərim pərən oldu,
Yandı bağrım, vərəm oldu.
Kərəm "Yanıq Kərəm" oldu,
Mən də yana biləydim kaş.

Dözəmmirəm sazaqlara,
Can ağrıdan yasaqlara.
Çıxıb gedim uzaqlara,
Səmt hayana, biləydim kaş.

Dünya dərya, qəvvası yox,
Ömür qısa, vəfası yox.
Cəfa çəkdim, səfası yox,
Mövlud, ana biləydim kaş.

**Mövlud Ağamməd,**
**Quba**

## Ozan yaddaşı

Dədəm Qorqud Tanrı yüklü,
Albanbaşı Qazan xan ər.
Türk-Oğuz tək kökün köklü,
Odər adım bu gün Azər.

Həqqdən gələn gücünü,
İman andın qaytarar.
Kökdən gələn gücünü,
Tük inadın qaytarar.

At üstdə türk alpaqu,
Şahı sirli tarixin,
Qopuzlu Dədə Qorqud
Şah əsəri tarixin.

Qılıncı qında paslanan,
Oyan, yeddi parana bax.
Qopuzu dəmdə sazlanan !
Qaysaqlanan yarana bax.

**Cabir Alpoğlu Albantürk,**
**Quba**